*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh.391-398*

https://doi.org/10.62837/2025.5.391

**TAMARA ŞƏRBƏT QIZI ƏLIZADƏ**
**DÜRDANƏ ƏSƏD QIZI Nağıyeva**
**Azərbaycan Tibb Universiteti**
**Azərbaycan dili kafedrası**
**alizadetamara@yahoo.com**

# BƏXTİYAR VAHABZADƏ YARADICILIĞINA BIR NƏZƏR

**Açar sözlər:** Azərbaycan ədəbiyyatı, ana dili sevgisi, Bəxtiyar Vahabzadə, , frazeologizmlər, onomastik leksika

**Keywords:** Azerbaijani literature, love of the native language, Bakhtiyar Vahabzadeh, phraseologisms, onomastic lexicon

**Ключевые слова:** Азербайджанская литература, любовь к родному языку, Бахтияр Вагабзаде, фразеологизмы, ономастическая лексика.

Xalq şairi Bəxtiyar Vahabzadə Azərbaycan ədəbi-bədii mühitinin formalaşmasında, inkişaf etməsində mühüm rol oynamışdır. Söz sənətkarının yaradıcılığının təsir gücü bu gün də özünü göstərməkdədir. Söz ustasının təkrarolunmazlığı yalnız onun poeziyası ilə bitmir. Eyni zamanda Bəxtiyar Vahabzadənin elmi və publisistik yaradıcılığı da diqqəti çəkir, dil məsələləri, ana dilinə münasibət ön planda saxlanılır. Ümummilli Liderimiz Heydər Əliyev Bəxtiyar Vahabzadəyə böyük qiymət verirdi: "Sizin şəxsiyyətiniz və yaradıcılığınız xalqın milli təfəkkürünün formalaşmasına xidmət etmiş, onu milli dirçəlişə səsləmiş, istiqlaliyyət uğrunda mübarizədə əvəzsiz rol oynamışdır. Siz hər zaman azadlıq carçısı olmuş, ən çətin anlarda belə güc və silah qarşısında baş əyməmiş, əqidəsindən dönməyən şair, mübariz millət vəkili, yorulmaz ictimai xadim kimi xalqın müdafiəsinə qalxmışsınız". Bu gün Ulu Öndərin layiqli davamçısı cənab İlham Əliyev də Bəxtiyar Vahabzadəyə dəyər verir: "Siz yaradıcılığınızı vətənimizin azadlığı, müstəqilliyi və bütövlüyü uğrunda mübarizəyə həsr etmiş, milli şüurun yetişməsində mühüm rol oynamış və gənc nəslin milli-mənəvi dəyərlər sistemində tərbiyə olunması işinə böyük xidmətlər göstərmiş söz ustadlarımızdansınız. Poeziya sənətimizin ənənələrini zamanın sınaqlarından çıxaran və yaşadan bir şair kimi adınız ölkəmizdə daim ehtiramla çəkilir".

Bəxtiyar Vahabzadənin yaradıcılını təhlil etmək dərin düşüncə tələb edir. "Bəxtiyar Vahabzadə haqqında yazmaq yarım əsrdən artıq yaradıcılıq təkamülü keçmiş kamil bir şəxsiyyəti araşdırmaq deməkdir, - öz-özlüyündə məlumdur ki, bu o qədər də asan deyil və təbii olaraq məsələnin çətinliyini biz də hiss edirik; ancaq iş burasındadır ki, bütünlüklə milli hadisə olan Bəxtiyar Vahabzadə şəxsiyyəti tədricən də olsa şərh edilməli, açılmalı, müxtəlif yönləri ilə milli professional idrakın predmetinə çevrilməlidir. Öz böyük şəxsiyyətlərindən sərf-nəzər edib özgə məktəb

şəxsiyyətlərindən öyrənməyə meyilli olan millət nəticə etibarilə milli emosiyalardan, təfəkkürdən məhrum olub özgələr kimi düşünür, özgələr kimi həyəcanlanır, millətin qarşısında mürəkkəb problemlər çıxanda üzünü mütiliklə ya Şərqə ya da Qərbə çevirir. Bəxtiyar Vahabzadə milli təfəkkürün elə mükəmməl məhsuludur ki, belə bir məktəbi olan millət "savadsız" ola bilməz - birincisi ona görə ki, "savadsız" millətin bu qədər mükəmməl məktəb yaratması mümkün deyil; ikincisi ona görə ki, bu qədər mükəmməl məktəbi olan millətin həmin məktəbdən öyrənməməsi mümkün deyil... (3, 178) Vahabzadə həmişə qızğın axtarışlarla məşğuldur, öz şeirini yeni -yeni üslub xüsusiyyətləri ilə zənginləşdirir, hər bir əsərində əzəmi dərəcədə müasir və dolğun fikir ifadə etməyə meyil göstərir, ən çox müasir həyatımızdan doğan vacib və çətin suallara cavab verməyə çalışır (6, 19)

Mail Dəmirli yazırdı ki, "Bəxtiyar Vahabzadə poeziyası məhz bu göstərilən xüsusiyyətləri ilə polifonik, çoxrəngli və çoxşaxəli sənətdir; burada ümid də var, dünyanın sabahı üçün təbii insan qorxusu da; fikir də var, duyğuların zərif qövsi-qüzehi də; sərt bir realizm də var, buxovsuz bir romantika da; lirizm də var, epik bir dərinlik də; özünü ifadə tərzi də var, publisistika da. Və sonuncu bədii istiqamət xüsusilə son illərdə onun bütün ədəbi fəaliyyətində ən əsas xətlərdən birini təşkil etmişdir ki, bu da tamamilə təbii və önəmlidir (9, 3). "Onun poeziyası milli və bəşəri ənənələr üzərində ucalmışdır. O, folklor, klassik və bəşəri ədəbiyyatın görkəmli nümayəndələrini öyrənmiş, bu zəngin mənəvi irsdən səmərəli istifadə etmişdir. Güclü bədii ənənə Vahabzadə poeziyasına zəngin novatorluq keyfiyyətləri gətirmiş, onun fərdi üslubunu müəyyənləşdirmişdir.

Vahabzadə milli şeirimizə intellektual poeziyanın örnəyini gətirmiş, vahid ədəbi prosesə güclü təsir göstərmiş, analitik, mühakiməli təfəkkürün poetik nümunəsini vermişdir. O, məntiqi idraki poeziyaya keçid etmiş, milli poeziyamızın təkamülünə yön göstərmişdir (4, 17).

Bəxtiyar Vahabzadə "Ana dili – dövlət dili" məqaləsində çox doğru olaraq anladırdı ki, "Dili ahıl yaşında öyrənməzlər. Amma bunu yad dil haqqında demək olar, ana dilini sonradan deyil, körpəlikdən – ananın öz dilindən öyrənərlər. Sonradan öyrənilən dil yalnız özgə dil ola bilər. Çünki:

Anasının dilində dil açmayan kəs,
Millətinin dərdini anlaya bilməz.

Necə yəni, özün bu millətə mənsub olasan, bu millətin çörəyini yeyib, bu millətin suyunu içəsən, amma onun dilini bilməyəsən? Əgər xalqın dilini bilmirsənsə, demək millətin ruhuna, mənəviyyatına, tarixinə yadsan, demək bu millətə övlad deyilsən" (9, 6).

Bəxtiyar Vahabzadə ana dilinə aid olan səslərin hikmətindən bəhs edir: "32 səs! Bunlar adi səslərdimi? Yox! Təbiətin, yerin, göyün, kainatın bütün sirri və hikməti bu 32 səsdə cəmlənmişdir bu 32 səs insanın kainata sığmayan arzularının, ideyalarının duyğu və fikirlərinin ifadə vasitələridir" (12, 236).

Şair Türkiyədə müalicəsi zamanı şahidi olduğu, müşahidə etdiyi prosesə "Ana dili, yenə ana dili" məqaləsində fikir bildirir: "Mən ingilis və qeyri-Avropa dillərinin öyrənilməsinin əlieyhinə deyiləm. Amma uşaqları formalaşdığı dövrdə milli kökdən və milli ruhdan ayırmağın, onları özgə ruhda böyütməyin təhlükəli olduğunu cümhur başqanına öz timsalımızda izah etdim" (9, 24).

Bəxtiyar Vahabzadənin 75 illik yubileyi münasibətilə təbrikdə deyilirdi ki, Bəxtiyar Vahabzadə hansısa qrupun, yaxud bölgənin övladı deyil, bütöv Azərbaycanın övladıdır. Həm də xalqın –

Ürəksiz yazılan hansı bir əsər
Yadigar qalmışdır gələcək günə? –

deyən və sözü ilə əməli düz gələn sənətkar övladıdır (7, 148).

İstənilən dövrdə şair ana dilində danışmağın təbliğatını aparırdı: "İndi bizə nə lazımdır? Özümüzü başqaları ilə bərabərhüquqlu bir xalq kimi dərk etmək! Özümüzə, milli varlığımıza hörmət etmək! Heç kəs bizə yuxarıdan demir ki, övladlarına ana dilini öyrətmə, ana dilində olan məktəblərə biganəlik göstər, Dövlət dilində yazılmış ərizəni qəbul etmə! Ana dilində danışma!

Bu yaxşı haldırmı ki, ümumdünya şöhrəti qazanmış, ana dilinin gözəl bilicisi Üzeyir bəyin anadan olmasının 100 illik yubiley iclası ana dilində keçməsin? Eləcə də ədəbi dilimizin əsasını qoyan Nəsiminin yubileyi. Dilimizə bu cür biganə olanlar kimdir? Öz kökündən ayrılmış, doğma xalqının dilini, tarix və mədəniyyətini bilməyən, bilmədiyinə görə də bilmədiyinə qənim kəsilən bəzi milli nihilistlər (8, 22).

Bəxtiyar Vahabzadə şeirinin üslubu ilə bağlı bir məsələni də qeyd etmək yerinə düşərdi. Şair poemalarının əksəriyyətində folklora, xalqın yaddaşına həkk olunan şeirlərə müraciət etməklə yanaşı, digər şairlərin dillərdə əzbər olmuş şeirlərindən də istifadə edir. Müraciət edilən şeirin ümumi mətnlə bir bağlılığı olur. O, oxucuya birbaşa psixoloji təsir etmək gücünə malik olur. Bəxtiyar Vahabzadə şeirini xalqa daha yaxın edir, onu sevdirir. Şairin yaradıcılığını "istedadlı dil" adlandıran Tofiq Hacıyev də şairin dilində 2 üslubun olmasını göstərir. Birinci, üslubi çalara şərh verən müəllif göstərir ki, birinci çalar 50-ci illərdə ümumiyyətlə poeziyamızda fəal və dəbdə olan meyillə bağlıdır. Həmin dövr yaradıcılığında şair bu üslubun gözəl nümunələrini yaradıb (5, 82). Şair yazır: "Ana dili! Bu dildə yaranan sənət əsərləri, elmi əsərlər hər kəs üçün hər şeydən əzizdir. Şair bu dillə böyüyür, bu dildə danışır, bu dil vasitəsi ilə yazıb yaradır, bu dillə də öz xalqının arzu və əməllərini ifadə edir (9, 247).

Bəxtiyar Vahabzadə şeirinin daha dərin qatlarında yerləşən, ilk baxışda çətin müəyyənləşdirilən göstəricilər mürəkkəb keyfiyyətə malikdir. Bu vahidlər məzmundan, şairin bədii təxəyyülündən ənənə ilə fərdi fantaziyanın vəhdətindən yaranır və zəngin daxili məzmununa malik olur, dilin bütün səviyyələrini əhatə edir. Bəxtiyar Vahabzadə şeirinin bədiiliyini şərtləndirən başlıca amil onun dildən xususi ustalıqla faydalanması, adi sözü ustalıqla oynada bilməsi və bu yolla oxuculuq

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh. 391-398*

şüuruna, əqidəsinə, hisslərinə təsir edə bilməsidir. Şairin dilindəki bu faktları fəlsəfi ümumiləşdirmələr, müdrik mühakimələr adlandıran Tofiq Hacıyev göstərir ki, İkinci meyil şairin 50-ci illər yaradıcılığında da var, lakin 60-cı illərdən güclənir. Beləliklə, arxa planda olan çalar kimi sevilən üslubi yön hazırda şairin əsas üslubudur (5, s. 82). Poetik, təmtəraqlı sözləri adi məişət sözləri ilə yanaşı işlədərək bədii dilin imkanlarını dolğun əks etdirə bilmək bədiiliyi tək-tək sözlərlə deyil, onların sənətkaranə tərzdə birləşdirilməsi ilə nümayiş etdirmək Bəxtiyar Vahabzadənin fərdi üslubunu səciyyələndirən əsas amildir. Şairin dil və üslubunun dərin qatlarında yerləşən bu keyfiyyət müasirliklə tarixiliyin vəhdətini nümayiş etdirir və bu vəhdətin poetik funksiyası şairin yaradıcılığı boyu geniş miqyas alır. Göstərdiyimiz kimi, Bəxtiyar Vahabzadənin yaradıcılığı çoxsəpkilidir və şairin xüsusi diqqət yetirdiyi məsələlərdən biri dil və üslubla bağlı problemlərdir. Onun sənətə baxışı dərin və çoxcəhətlidir. Şair öz əsərlərində yalnız poeziyadan, nəsrdən deyil həm də dil və sənətkarlıq məsələləri, yazıçı və şairin necə və nədən yazması haqqında ətraflı bəhs edir (13, 8).

Poemalarında fəlsəfi ümumiləşdirmələrə geniş yer verən sənətkar yerli yerində işlənən məhəbbət, ehtiram, kinayə, nifrət məzmununun çatdırılması üçün sinekdoxalardan kifayət qədər bəhrələnmişdir. Sözün incəliklərinə, çoxmənalılığına dərindən bələd olan şair bədii nitqin məhz söz vasitəsilə reallaşan estetik funksiyasına xüsusi əhəmiyyət verir. Musa Adilovun “Qanadlı sözlər” kitabına ön söz yazan Bəxtiyar Vahabzadə sözün əhəmiyyətini aşağıdakı kimi ifadə edir: “Söz fikrin ifadə vasitəsi olduğu üçün onun da fikir kimi məna dərinliyi, məzun rəngarəngliyi hüdudsuzdur. Söz müxtəlif tərəflərdən müxtəlif rənglərdə görünə bilər. Məna pilləsi ilə sözün zirvəsinə qalxmaq, onu hər tərəfdən görə bilmək, cövhərini tam üzə çıxarmaq hələ heç bir ədibə və dilçi alimə müyəssər olmayıb...

Çünki ən qüdrətli izahlı sözlüklər belə sözə xalqın verdiyi rənglərin və mənaların hamısını bütünlüklə aydınlaşdırıb izah etməkdə acizdir (2, 3).

Ədəbi dilin qrammatik quruluşu olduğu kimi üslubi quruluşu da var. Üslubiyyatın əsas məqsədi poetik məzmunun açılmasıdır. Poetik məzmun sonsuz deyil, müəyyən həcmə malikdir və istənilən mətnin bədii efektiv sistemli şəkildə dil səviyyələrinə uyğun şəkildə açılır. Üslubiyat bədii dili bütün struktur boyu öyrənir. Hər hansı bir şair və yazıçının, əsərin dili dövrün, yaxud mərhələnin ümumi dil mədəniyyətinin məhsuludur. Bəxtiyar Vahabzadə şeirini səciyyələndirən üslubi xüsusiyyətlər özünü 2 formada göstərir. Bu xüsusiyyətlərin birincisi üzdə olan və ilk baxışdan nəzərə çarpan tarixi poetika vahidləridir. Bu vahidlər uzun illər ərzində formalaşmış poetexniki xususiyyətlərdir və şeir dilinin əsasını təşkil edir. Bəxtiyar Vahabzadə şeirinin dərin qatlarında yerləşən və müşahidə, tədqiqat nəticəsində müəyyənləşdirilən mürəkkəb keyfiyyətlərə malik olan üslubi elementlərdir. Bu vahidlər dərin daxili məzmuna malikdir və Bəxtiyar Vahabzadənin fəlsəfi müdrik şeirini şərtləndirən başlıca amillərdir. Bəxtiyar Vahabzadə poemalarında işlək

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh.391-398*

priyom vasitəsi kimi çıxış edən folklora müraciət fonunda müasir şeirlə xalq şeirinin harmonik sintezi yaranır və Azərbaycan şeirinin tarixi inkişaf yolu oxucunun qarşısında tam aydınlığı ilə canlanır. Tədqiqatçı alim Bəxtiyar Vahabzadə şair Bəxtiyar Vahabzadəyə yaradıcılıq stimulu vermis, o Nəsimidən əqidə üsyankarlığı, Füzulidən müdrik ifadə tərzi, Səməd Vurğundan canlı danışıq ünsürlərini işlətmək təcrübəsi əxs etmişdir. Bəxtiyar Vahabzadə ayrı-ayrı şair və yazıçılarla tənqidçi ədəbiyyatşünas münasibəti onun özünün də bir şair kimi yetişməsinə müəyyən qədər təsir göstərmişdir. Bəxtiyar Vahabzadə şeirində üslub göstəriciləri dilin bütün səviyyələri üzrə eyni poetik məhsuldarlıq təşkil edir və tarixiliklə müasirliyin vəhdəti şəklində onun dil üslubunu şərtləndirir. Ədəbi dilin təkmilləşdirilməsində, lüğət tərkibinin zənginləşdirilməsində hər bir şairin özünəməxsus yeri vardır. Ədəbi dil tarixinin bir sıra mərhələləri məhz həmin dövrdə yaşayıb-yaratmış söz ustalarının adı ilə bağlıdır. Ona görə də şairlərin fərdi dil xususiyyətlərini aydınlaşdırmaq dilçiliyin problemləri sırasındadır. Ədəbi dilin nüfuzunu qoruyan şairlər içərisində Bəxtiyar Vahabzadənin özünəməxsus yeri vardır. O daim xalq dilindən bəhrələnmişdir. Onun şeirlərində xalq dili parlaq ifadəsini tapmışdır. Bəxtiyar Vahabzadənin yaradıcılığı dil xüsusiyyətləri baxımından dilçiliyimizin diqqətində olmuşdur, Onun poeziyasındakı keyfiyyətinin əsasında xalq dili dayanır. Ədəbi dilin tədqiq edilməsində bədii əsərlərin dilinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Şairin əsərlərinin üslubi imkanları dəfələrlə tədqiqatçılar tərəfindən öyrənilmişdir. Bəxtiyar Vahabzadə yazırdı ki, dil təbii ola bilər, amma gözəl olmaz (məsələn, loru danışıq, jarqonlarla dolu olan nitq). Eləcə də bunun əksinə olaraq dil gözəl ola bilər, amma təbii ola bilməz (məsələn, qeyri-səmimi müəyyən effekti vurmaq üçün nəzərdə tutulmuş nitq). Bu iki keyfiyyət bir-birini tamamladıqda bədii əsərin dili və məzmunu uğurlu hesab edilə bilər. Burada şair əsl Azərbaycan sözləri və alınma sözlər məsələsinə də toxunur. Müəllifin seçdiyi misallar nöqsansız olmasa da onun belə bir fikri diqqətə layiqdir ki, xalq dilinə məxsus olan söz daha anlaşıqlı, daha təsirlidir (10, 31)

Şairin əsərlərini dil baxımından izləyərkən nə qədər yenilik gətirdiyini müşahidə etmiş oluruq, dilin imkanlarından ustalıqla istifadə etdiyini görürük.

Bəxtiyar Bahabzadənin şeirlərində frazeoloji birləşmələrin əsasında insanın bədən üzvlərinin adları əsas yerdədir: baş, əl, ayaq, göz, ürək və s.

*Baş* sözünün iştirakı ilə düzəlmiş frazeoloji birləşmələrə *başı yastığa əyilmə, başını tərs dəyirmana işlətmək* və s. misal göstərmək olar.

*Əl* sözünün iştirakı ilə düzəlmiş frazeoloji birləşmələr: *əlini ağdan qaraya vurmamaq, əl qaldırmaq və s.*

*Ayaq* sözünün iştirakı ilə yaranan frazeoloji birləşmələr: *ayağının altından yer qaçmaq, ayağı çöldən yığışmaq* və s.

*Ürək* sözünün iştirakı ilə düzəlmiş frazeoloji birləşmələr: *ürəyinə yatmaq, ürəyi dağa dönmək, ürəyinin teli qırılmaq və s.*

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh. 391-398*

*Göz* sözünün iştirakı ilə düzəlmiş frazeoloji birləşmələr *gözünün qorasını tökmək, gözünə kül üfürmək və s.*

Şairin işlətdiyi bir sıra ifadələr maraq doğurur: *gönü suya vermək, suyu sovrulmuş dəyirman, ipə sapa yatmamaq* və s.

Bilirik ki, atalar sözləri, zərb-məsələlər dilin obrazlı ifadələri arasında böyük hissəni təşkil edir. Şairin dilində qeydə aldığımız bir sıra nümunələrə nəzər yetirək: *Ot kökü üstündə bitər; Kələk ilə gələn külək ilə gedər; Yalan ayaq tutar, amma yeriməz; Yad yerin halvası şirin olar* və s.

Şair atalar sözləri və zərb məsəllərdən öz fikirlərini məsələyə münasibətinin daha da qüvvətləndirmək üçün istifadə etmişdir. Bəzən yalnız tövsiyə xarakterli deyil, həm də bədii təsvir və bədii ifadə vasitəsi kimi istifadə etmişdir. Bəxtiyar Vahabzadə xalq həyatını, xalq məişətini dərindən bilən bir insan kimi xalq danışıq dilinin zənginliklərindən müvafiq şəkildə istifadə etmişdir. Onun yaradıcılığında bədiilik, xitablar, metaforlar, epitetlər maraq doğururlar. Bilirik ki, məcazlar obrazlı təfəkkürün məhsuludur. Bu baxımdan Bəxtiyar Vahabzadə yaradıcılığında məcazlar özünəməxsus şəkildə işlənmişdir. Xitablardan istifadə edərkən şair yalnız qarşısındakı şəxsə müraciət etməmişdir, o həm də öz ünvanına, öz könlünə müraciətlər etmişdir. Xitabları incələyərkən danışıq dilinə xas olan *ay, a* vokativlərinin işlədilməsini müşahidə etdik. Bunlar şeirin dilinə bir doğmalıq çaları gətirmişdir. Həmcins xitablar da xeyli saydadır. Burada misranın həm əvvəlində, həm ortasında, həm sonunda gələn xitablara rast oluruq. Xitablar bəzən qafiyə, bəzən isə rədif yaradan ünsür kimi işlədilmişdir. Bütün bunlar Bəxtiyar Vahabzadə yaradıcılığının dil xüsusiyyətlərinin böyük bir hissəsidir.

Epitetlərə gəlincə, onların böyük əksəriyyətini frazeologizmlər təşkil edir. Məsələn, *əldən ayaqdan düşmüş ana, ürək dağlayan xəbər* və s. Qeydə aldığımız digər nümunələrə diqqət edək: *Acı söz, ağır söz, ağılsız söz, bayağı söz, bekara söz, qəribə söz, odlu-alovlu söz, heyrətli söz, köntöy söz, kövrək söz, gurultulu söz, şirin ləhcəli söz, təhqiramiz söz, müdhiş söz, nəzakətsiz söz, ipək söz, tikanlı söz.* Bununla da söz danışanın cəmiyyətdəki yeri bəlli olur. Sözlə həmin şəxsin daxili aləmi ortaya çıxmış olur. B. Vahabzadənin poeziyasında metaforlar da üstünlük təşkil edir: *bəyaz xeyir, əxlaq tarlası, qansız soyuqluq, ellər atası, söz pəhləvanı, arxalı köpək* və s.

Şairin apardığı müqayisələr maraq doğurur: *illər axıb keçdi axar su kimi, o xoruz beçə kimi dikəldi və s.*

Bəxtiyar Vahabzadənin poetik dili özünəqədərki ədəbi bədii dildən Azərbaycan xalq danışıq dilindən və folklorumuzun müxtəlif janrlarından bəhrələnmişdir.

Nəticə olaraq deyə bilərik, Bəxtiyar Vahabzadənin yaradıcılığını istənilən aspekdən təhlili onu göstərir ki, şair xalqına, vətəninə, kökünə, mədəniyyətinə, dilinə, ədəbiyyatına sevgi ilə yaşayıb-yaradıb, uçalıq gətiribdir. Nizami Cəfərovun qeyd etdiyi kimi, Bəxtiyar Vahabzadə haqqındakı söhbət onun mənsub olduğu millət haqqındakı söhbətdir... Bəxtiyar Vahabzadənin yaradıcılığında millət özünü dərk

edir... Azərbaycan xalqı on il, iyirmi il, hətta otuz il bundan qabaq Bəxtiyar Vahabzadəyə nə cür inanırdısa, bu gün də o cür inanır və onu millətin önündə gedən ən böyük şəxsiyyətlərdən biri hesab edir" (3, 172). Odur ki, şair, ziyalı, alim - Xalq şairi Bəxtiyar Vahabzadə yaradıcılığı nəinki yüz il keçsə, həm də daha uzun illər araşdırılmağa, təbliğ edilməyə layiqdir.

**Xülasə**

Xalq şairi Bəxtiyar Vahabzadə Azərbaycan ədəbi-bədii mühitinin formalaşmasında, inkişaf etməsində mühüm rol oynamışdır. Söz sənətkarının yaradıcılığının təsir gücü bu gün də özünü göstərməkdədir. Söz ustasının təkrarolunmazlığı yalnız onun poeziyası ilə bitmir. Eyni zamanda Bəxtiyar Vahabzadənin elmi və publisistik yaradıcılığı da diqqəti çəkir, dil məsələləri, ana dilinə münasibət ön planda saxlanılır.

Məqlədə Azərbaycanın böyük ziyalılarının, alimlərin Bəxtiyar Vahabzadə irsinə verdiyi dəyər diqqətə çatdırılır. Prezident İlham Əliyevin şairin 100 illiyinin geniş qeyd edilməsi haqqındakı sərəncam nəzərə alınaraq ədibin yaradıcılığı təhlilə cəlb edilir. Qeyd olunur ki, şair, ziyalı, alim - Xalq şairi Bəxtiyar Vahabzadə yaradıcılığı nəinki yüz keçsə, həm də daha uzun illər araşdırılmağa, təbliğ edilməyə layiqdir.

**Alizadeh T.**
**Nagiyeva D.**

**A look at the work of Bakhtiyar Vahabzade**

**Summary**

People's poet Bakhtiyar Vahabzade played an important role in the formation and development of the literary and artistic environment of Azerbaijan. The influential power of the word master's creativity is still evident today. The uniqueness of the word master does not end only with his poetry. At the same time, Bakhtiyar Vahabzade's scientific and journalistic creativity also attracts attention, language issues and attitude to the native language are kept in the foreground.

The article draws attention to the value that great intellectuals and scientists of Azerbaijan attach to the heritage of Bakhtiyar Vahabzade. Taking into account the decree of President Ilham Aliyev on the broad celebration of the poet's 100th anniversary, the writer's creativity is analyzed. It is noted that the creativity of the poet, intellectual, scientist - People's Poet Bakhtiyar Vahabzade deserves to be studied and promoted not only after a hundred years, but also for many more years.

**Ализаде Т.**
**Нагиева Д.**

**Взгляд на творчество Бахтияра Вагабзаде**

**Резюме**

Народный поэт Бахтияр Вагабзаде сыграл важную роль в становлении и развитии азербайджанской литературно-художественной среды. Влияние

творчества поэта ощущается и сегодня. Уникальность мастера слова не ограничивается его поэзией. В то же время привлекает внимание и научно-публицистическое творчество Бахтияра Вахабзаде, в котором на первом плане остаются вопросы языка и отношения к родному языку. В статье подчеркивается, какое значение великие интеллектуалы и ученые Азербайджана придают наследию Бахтияра Вагабзаде. С учетом указа президента Ильхама Алиева о широком праздновании 100-летнего юбилея поэта анализируется творчество писателя. Отмечено, что творчество поэта, интеллектуала и ученого - народного поэта Бахтияра Вахабзаде заслуживает изучения и популяризации не только на протяжении ста лет, но и на протяжении многих лет.

## Ədəbiyyat

1. Alməmmədova S.M. Bəxtiyar Vahabzadə poeziyasının dili. Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2008.
2. Adilov M.İ. Qanadlı sözlər. Bakı, Yazıçı, 1988.
3. Cəfərov N. Seçilmiş əsərləri (beş cilddə). II cild. Elm, 2007, 352 s.
4. Əsgərli Əlizadə. Bəxtiyar Vahabzadə (həyatı, mühiti və yaradıcılığı). Sənətkarın elmi pasportu - 32. Bakı, "Elm və təhsil", 2022.
5. Hacıyev T. Düşüncəli, istedadlı dil, Azərbaycan Bəxtiyarı. B.Vahabzadənin həyatı, yaradıcılığı və ictimai həyatı haqqında məqalələr toplusu. Bakı, Azərbaycan, 1995.
6. Kərimova S.Y. Bəxtiyar Vahabzadənin yaradıcılığında tərbiyə məsələləri. NDA 2003.
6. Mehdi Hüseyn. Narahat şair. "İnsan və zaman" kitabına ön söz. 1972
7. Türk dünyasının Bəxtiyarı. II hissə. Bakı, "Təfəkkür" NPM, 2002, 268 s.
8. Vahabzadə B. Gəlin açıq danışaq... (Məqalələr toplusu). Azərbaycan Dövlət Nəşriyyatı. Bakı, 1988.
9. Vahabzadə B. Zaman və mən. Bakı, 1999.
10. Vahabzadə B. Dildə təbiilik və gözəllik. Dil mədəniyyəti, III.
11. Vahabzadə B. Tariximizi saxtalaşdıran alim. Bakı.
12. Vahabzadə B. Sənətkar və zaman. Bakı. Gənclik, 1976.
13. Vəliyeva X.X. Bəxtiyar Vahabzadə poemalarının dili və üslubu. Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı, 2004.

**Rəyçi:** filologiya üzrə fəlsəfə doktoru, dosent **Məfkurə Hüseynova**